# Asiya İnfrastruktur İnvestisiya Bankı haqqında məlumat

Asiya İnfrastruktur İnvestisiya Bankı (AİİB) 2015-ci il 29 iyun tarixində, Pekin şəhərində 57 təsisçi ölkə (37 regional, 20 qeyri-regional), o cümlədən Azərbaycan Respublikası tərəfindən AİİB-nin yaradılması haqqında Maddələr Sazişinin imzalanması ilə təsis olunmuş, 2016-cı il 16 yanvar tarxində fəaliyyətə başlamışdır. AİİB dayanıqlı infrastrukturun maliyyələşdirilməsi missiyasını yerinə yetirən və Çin hökumətinin təşəbbüsü ilə yaradılmış çoxtərəfli inkişaf bankıdır. Bankın fəaliyyəti AİİB-nin təsisi haqqında Maddələr Sazişi[1] və AİİB-nin Əsasnaməsi[2] ilə tənzimlənir. Baş ofisi Çinin paytaxtı Pekin şəhərində yerləşir. AİİB-yə 110 ölkə[3] qoşulmuşdur ki, bunlardan 51-i regional, 52-i qeyri-regional, 7-i isə namizəd üzv ölkələrdir.

Bankın siyasətini müəyyən edən ali orqan hər bir üzv dövlətin bir nəfər nümayəndəsindən ibarət, illik əsasda toplanan Rəhbərlər Şurasıdır[4]. Rəhbərlər Şurası öz növbəsində Direktorlar Şurasının[5] on iki üzvünü və onların müavinlərini seçir. Direktorların doqquzu regional üzv ölkələrdən, digərləri isə qeyri-regional üzv ölkələrdən seçilir. Rəhbərlər Şurası, həmçinin Bankın Prezidentini seçir. Prezident Bankı idarə edir və Direktorlar Şurasına sədrlik edir. Prezident regional üzv ölkələr sırasından 5 illik müddətə seçilir və ikinci dəfə seçilmək hüququna malikdir. 2016-2020-ci illərdə Bankın Prezidenti çinli Jin Liqun olmuşdur. 2021-2025-ci il dövrü üzrə prezidentlik vəzifəsinə yenidən cənab Liqun seçilmişdir. 2026-2030-cu illərdə həmin vəzifəni xanım Zou Jiayi icra edəcək.

Bankın nizamnamə kapitalı hər biriin nominal dəyəri 100,0 min ABŞ dolları olmaqla, ümumilikdə 10 000 000 ədəd səhm və ya 100,0 mlrd. ABŞ dolları təşkil edir ki, bunun da 20,0 mlrd. ABŞ dolları ödənilən (paid-in), 80,0 mlrd. ABŞ dolları çağırıla bilən (callable) şəklində bölüşdürülmüşdür. 2025-ci il 11 avqust tarixinə olan məlumata[6] əsasən nizamnamə kapitalının 97,58 mlrd. ABŞ dollarına üzv ölkələr tərəfindən abunəlik həyata keçirilmişdir. Bankın ən iri səhmdarları Çin (30,52%), Hindistan (8,57%), Rusiya (6,70%), Almaniya (4,60%) və Koreya Respublikasıdır (3,83%).

Bankın prosedur qaydalarına əsasən, Banka yeni üzv ölkə qəbul edildikdə, səhm kapitalında iştirakla bağlı öhdəliklər ödənilən kapitalın (paid-in) 5 bərabər illik ödənişlərlə Banka köçürülməsi ilə həyata keçirilir. Birinci ödəniş üzv dövlət tərəfindən Bankın nizamnaməsi təsdiq edildikdən 30 gün müddətində, növbəti ödənişlər isə əvvəlki ödənişdən bir il sonra başa çatdırılmalıdır.

Hər bir üzv ölkənin ümumi səsvermə hüququ Bankın ümumi səslərinin 12 faizinin regional və qeyri-regional üzv ölkələrin sayının cəminə bölünməsi ilə əldə edilən baza səslərinin (hazırda 1318 səsə bərabərdir[7]), həmin üzvə məxsus Bankın kapitalındakı səhmlərin sayına bərabər pay səslərinin və təsisçi üzv olduğu halda, onun təsisçi üzv ölkə kimi səslərinin (600 səs) cəmindən ibarətdir. Ümumilikdə 1 131 296 səsvermə hüququnda Çin (26,49%), Hindistan (7,57%), Rusiya (5,95%), Almaniya (4,13%) və Koreya Respublikası (3,47%) ən çox paya malik üzv ölkələrdir.

2025-ci il 08 avqust tarixinə olan məlumata[8] əsasən yarandığı tarixdən etibarən, AİİB tərəfindən 38 üzv ölkədə enerji, maliyyə, nəqliyyat, iqtisadi dayanıqlıq, səhiyyə, su və digər sektorlar üzrə 61,82 mrld. ABŞ dolları həcmində 326 kredit və investisiya layihələrinin maliyyələşdirilməsi təsdiqlənmişdir.

Layihələr barədə ətraflı məlumat üçün: https://www.aiib.org/en/projects/list/index.html

**AİİB və Azərbaycan.** 2015-ci il 29 iyun tarixində Pekin şəhərində Azərbaycan Respublikası tərəfindən imzalanmış AİİB-nin Maddələr Sazişi Azərbaycan Respublikasının 2016-cı il 4 mart tarixli 166-VQ nömrəli Qanunu ilə təsdiq edilmişdir. 2016-cı il 24 iyun tarixində

[1] https://www.aiib.org/en/about-aiib/basic-documents/articles-of-agreement/index.html
[2] https://www.aiib.org/en/about-aiib/basic-documents/by-laws/index.html
[3] https://www.aiib.org/en/about-aiib/governance/members-of-bank/index.html
[4] https://www.aiib.org/en/about-aiib/governance/board-governors/index.html
[5] https://www.aiib.org/en/about-aiib/governance/board-directors/board-members/index.html
[6] https://www.aiib.org/en/about-aiib/governance/members-of-bank/index.html
[7] 1131296×12%/(51+52)
[8] https://www.aiib.org/en/projects/summary/index.html

Azərbaycan Respublikası Bankın tamhüquqlu regional üzvü olmuşdur. 2025-ci il 11 avqust tarixinə olan məlumata[9] əsasən ölkəmiz Bankda ümumi səhm paketinin 0,26%-ni təşkil edən 254,1 mln. ABŞ dolları dəyərində 2541 səhmə və ümumi səslərin 0,394%-ni təşkil edən 4459 səsə malikdir. Ölkəmiz həm də Bankın təsisçisi olduğundan, onun səsvermə hüququna 2541 səhmə görə səslərdən əlavə, baza səslər (hazırda 1318 ədəd) və təsisçi üzv ölkələr üçün nəzərdə tutulan 600 ədəd səs əlavə edilir.

Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 1 iyun tarixli 2086 nömrəli Sərəncamı ilə Azərbaycan Respublikasının iqtisadiyyat naziri AİİB-nin Rəhbərlər Şurasında Azərbaycan Respublikası üzrə rəhbər, Azərbaycan Respublikasının maliyyə naziri alternativ rəhbər təyin edilmiş və onlara Bankda Azərbaycan Respublikasını təmsil etmək səlahiyyəti verilmişdir.

Ölkəmiz AİİB-də Azərbaycan, Bruney, Gürcüstan, Türkiyə, Pakistan və Qırğız Respublikasının yer aldığı qrupda[10] təmsil olunur. Həmin qrupa pakistanlı icraçı direktor Məhəmməd Yəhya Axunzadə rəhbərlik edir. Onun əvəzediciləri isə Bengü Aytekin və İnarə Mustafayeva təyin olunmuşdur.

AİİB ilə əməkdaşlıq çərçivəsində Bank tərəfindən ölkəmizə 3 layihə üzrə 0,87 mlrd. ABŞ dolları həcmində kreditlər ayrılmışdır:[11]

1. 2016-cı 21 dekabr tarixində Cənub Qaz Dəhlizi layihəsinin (TANAP) maliyyələşdirilməsi məqsədilə AİİB Azərbaycana 600 mln. ABŞ dolları məbləğində kredit ayırmışdır.
2. Koronavirus pandemiyasının və bundan irəli gələrək dünya enerji və səhm bazarlarında baş verən kəskin dalğalanmaların Azərbaycan Respublikasının iqtisadiyyatına, makroiqtisadi sabitliyə mənfi təsirinin azaldılması ilə bağlı hökumət tərəfindən həyata keçirilən tədbirlər üçün nəzərdə tutulmuş büdcə xərclərinin dəstəklənməsi məqsədilə 2021-ci ilin noyabr ayında Azərbaycan Hökuməti ilə AİİB arasında “COVİD-19-a Aktiv Cavab və Xərcin Dəstəklənməsi Proqramı” üzrə kredit sazişi imzalanmışdır. Sazişinin şərtlərinə əsasən Proqram çərçivəsində AİİB-dən 100 mln. ABŞ dolları məbləğində kreditin 10 il müddətinə LİBOR üstəgəl 0,5 faiz dərəcəsi ilə cəlb olunması nəzərdə tutulmuşdur.
3. 2024-cü il 16 noyabr tarixində Bankə və Biləsuvarda günəş fotovoltaik (PV) elektrik stansiyalarının tikintisinin maliyyələşdirilməsi məqsədilə AİİB ilə 170,0 milyon ABŞ dolları məbləğində sənəd imzalanmışdır.

[9] https://www.aiib.org/en/about-aiib/governance/members-of-bank/index.html
[10] https://www.aiib.org/en/about-aiib/governance/board-directors/board-members/index.html
[11] https://www.aiib.org/en/projects/list/year/All/member/Azerbaijan/sector/All/financing_type/All/status/All